# ***FİLMOQRAFİYA***

## *İşgüzar səfər (film, 1982)*



Kənddə yaşayan Ənvər (Fəxrəddin Manafov) şəhəri və şəhərliləri sevmirdi. O, heç özü də dəqiq deyə bilməz ki, bir dəfə onu Bakıya hansı qüvvə çəkib aparıb: atasının xatirəsi, yoxsa oğlunu axtarıb tapmasını xahiş edən həmkəndlisi Firuzə xalanın (Sidiqqə Heydərova) sözləri?.. Bakıya işgüzar səfər zamanı Ənvər vaxtilə atasını narazı salmış adamla (Rəsmi Cəbrayılov) görüşür və başa düşür ki, şəhərli heç də onun atasına pis münasibət bəsləməyib. Lakin Ənvərin şəhərə münasibəti Toma (Svetlana Rodina) adlı qızla tanışlıqdan sonra tamam dəyişir və gənclərin arasında qarşılıqlı hörmət hissi yaranır.

Filmdə mənəvi-etik problemlərə toxunulur. Müasirimiz olan sadə və təmiz qəlbli gəncin həyat sınaqları kino əsərinin əsasını təşkil edir. Film aktyor Fəxrəddin Manafovun kinoda ilk işidir. Film aktrisa Sidiqqə Heydərovanın kinoda ilk işidir. Film Rüstəm İbrahimbəyovun "İşgüzar səfər" povesti əsasında çəkilmişdir.

## ***Aşıq Veysəl (film, 2001)***

***Məzmun***

*Film məşhur türk şairi Aşıq Veysəl Əfəndi haqqındadır. Gözlərinin nurunu itirsə də qəlbinin nurunu itirməyərək dillər əzbəri əsərlər yaradan Aşıq Veysəlin muzeyi, doğulub boya başa çatdığı, gəzdiyi məkanlar filmdə öz əksini tapır.*

***Film haqqında***

*Filmin çəkilişləri tamamilə Türkiyədə, şairin doğulduğu yerdə aparılmışdır.*

***Filmin heyəti***

*Film üzərində işləyənlər*
*Ssenari müəllifi : Vüqar Tapdıqlı*
*Quruluşçu rejissor : Nazim Abbas*
*Quruluşçu operator : Vaqif Behbudov*
*Səs rejissoru : Firudin Bağıroğlu*
*Montaj : Azər Abbasov*
*Rejissor assistenti : Mikayıl Nəsirov, Vasif Məmmədzadə*
*Mətni Oxuyan : Eldəniz Rəsulov*
*Direktor : Məhyəddin Əsgərov*
*Filmin İdeyası : Nizami Xudiyev(titrlərdə yoxdur)*
*Redaktor : Nizami Xudiyev(titrlərdə yoxdur)*
*Musiqilərindən İstifadə edilən Bəstəkar :* ***Tofiq Bakıxanov***

***Filmdə iştirak edənlər***
*Rüştü Kazım Yücelen(dövlət naziri)*
*Filmdə iştirak edən yazıçı Gülağ Öz*

*Nazim Abbas*
*Zəhra Başər*

***Arxiv kadrlarda iştirak edən***
*Aşıq Veysəl (şəkil, video və səs)(titrlərdə yoxdur)*

***Çəkilişə köməklik edən qurumlar***
*Türkiyənin Azərbaycandakı Səfirliyi*
*Türkiyə İnformasiya Nazirliyi*
*TRT Şirkəti*
*"AZAL" Hava Yolları Dövlət Konserni*

***Sitatlar***
***Aşıq Veysəl sağlığında seçilib, bu gün anılır. Özünü sözdə yox, sözü özündə yaşadıb. Məclis aşığı yox, cümhuriyyət aşiqi olub. Əyləndirməyib, əyilməyib, əl açmayıb.***

## Tofiq Bakıxanov (film, 2000)

## Bir nəslin qan yaddaşı "Bakıxanovlar" filmində



Bu günlərdə ilk dəfə efirə gedən "Bakıxanovlar" sənədli filmini izlədim. Abbasqulu ağa Bakıxanovun elmi, ədəbi və ictimai-siyasi fəaliyyəti daim mənim maraq dairəmdə olduğundan filmi seyr etməyi öncədən planlaşdırmışdım. Filmin müəllifi tamaşaçıların, həmçinin, mənim "Ocaq başı" (muğam ustadı Hacıbaba Hüseynov haqqında), "Qayıdış" (Hüseyn Cavid haqqında), "Haşım bəy Saqib", "Məhsəti zirvəsi" (Məhsəti Gəncəvi haqqında) kimi sənədli televiziya filmlərinin müəllifi kimi tanıdığı akademik Rafael Hüseynov idi. Bu səbəb filmə olan marağı bir qədər də artırdı. Çünki sənədli filmin müəllifi tədqiqatçı alim, akademik idi, demək ki, film də akademik olacaqdı. Təxminlərimdə yanılmadım.

**Bakıxanovlar** həqiqətən Azərbaycanın böyük nəsillərindən biridir. Son 300 ildə Azərbaycan tarixi, dövlətçiliyi, hərb işi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti və s. sahələrdə Bakıxanovlar nəslinin nümayəndlərinin böyük xidmətləri olmuşdur. Soyadın mənşəyi Bakı xanlarından gəlsə də, təbii ki, nəslin şəcərəsi daha qədimdir. Xanlıqlar dövründən sonra bu ailənin üzvləri - Cəfərqulu ağa Bakıxanov, Abdulla ağa Bakıxanov, Həsən ağa Bakıxanov çar ordusunda xidmət edərək general rütbəsinə yüksəlmişlər. Ailənin, soyadın ən məşhur nümayəndəsi **Abbasqulu ağa Bakıxanovdur** və haqlı olaraq filmdə ən çox yer ona ayrılmışdır. Çar ordusunun zabiti olmaqla yanaşı, universal zəkası, ensiklopedik bilikləri ilə seçilən Abbasqula ağa Bakıxanov hərb elmini, dövlət siyasətini, məmur işini, bir neçə xarici dili bilməsi ilə yanaşı, coğrafiya, astronomiya, dilçilik, etika kimi elm sahələrində fundamental əsərlərin müəllifidir. Bütün fəaliyyətini, elmi, bədii əsərlərini hesaba almasaq belə, təkcə "Gülüstani-İrəm" əsəri kifayətdir ki, onun adı Azərbaycan tarixində silinməz iz qoysun. Bu əsəri ilə A.Bakıxanov Azərbaycan elmi tarixşünaslığının əsasını qoymuşdur. Əlbəttə, ona qədər tarixlə bağlı salnaməçilik və ya təzkirəçilik ənənələrinə uyğun əsərlər yazılmışdı. Lakin bu əsər müasir tarixşünaslıq elminin tələblərinə cavab verən ilk əsər hesab edilir. Həm də "Gülüstani-İrəm"ə qədər yazılan tarixi əsərləri yaxın dövrü, əsərin yazıldığı zamandan 2-3 əsr əvvəli əhatə edirdisə, A.Bakıxanov tarixi ən qədim zamanlardan başlayaraq 1813-cü il Gülüstan müqaviləsinə qədərki dövrü əks edirir. A.Bakıxanovun elmi yaradıcılığı ilə yanaşı, bədii yaradıcılığı

da vardır. Klassik ədəbi ənənələrimizə uyğun olaraq 3 - Azərbaycan, ərəb, fars dillərində şeir "Divanı"nın, poemaların, müxtəlif janrlı şeirlərin, hətta təmsillərin müəllifi olmaqla yanaşı, bədii tərcümələri də məlumdur. Haqqında cild-cild kitablar yazılmalı Abbasqulu ağa Bakıxanovun həm elmi, həm də ədəbi irsi kifayət qədər öyrənilməmiş, hətta heç öyrənilməmişdir deyə bilərik. Amma bütün bu qeyd etdiklərim elmi və publisistik ədəbiyyatda öz əksini tapır. Filmdə təbii olaraq bunlar səslənir, lakin kontekstə uyğun sənədli faktların nümayişi, söhbətlərin lentə alındığı məkanlar bu məlumatları bilməyənlər üçün onları oxumadan da ömürlük yadda saxlamağa imkan yaradır. Fotolar, sənədlər, video-fraqmentlərlə yanaşı, filmin ən qüvvətli məqamı əsas bələdçinin nəslin 90 yaşlı nümayəndəsinin, məşhur, soyadına sadiq və layiq nümayəndəsinin - bəstəkar, Xalq artisti Tofiq Bakıxanovun olmasıdır. Alimlər, tədqiqatçılar məlumatları tarixi kitablardan, təzkirələrdən, ensiklopediyalardan, hətta bəzən bədii əsərlərdən toplayaraq faktlar üzə çıxarır, bir də xanlığın yaranmasından götürsək, nəslin təxminən 300 illik tarixini 90 yaşlı üzvünün dilindən eşitmək var. Və dilləndirən də Rafael Hüseynovdur.

Filmdə marağıma səbəb olmuş səsləndirilən, daha doğrusu, göstərilən faktlardan biri Mirzə Məhəmməd xanın və Abbasqulu ağa Bakıxanovun möhürləridir. Möhürü əlində tutmaq, bir növ onun sahibinin imzasını əlində tutmaq deməkdir. Hələ də A.Bakıxanov kimi bir şəxsin! Onun şəxsi əşyalarının günümüzə çatmadığını düşünürdüm. Yeni məlumat almış oldum.

A.Bakıxanovun "Seçilmiş əsərləri"ndə "Fatma tar çalır" adlı bir şeiri var. Verilişin müəllifi Rafael Hüseynov qeyd edir ki, A.Bakıxanov bu şeirində musiqiyə sevgisini göstərir. Şeiri dəfələrlə oxumuşam, bir qadının tar çalmasına diqqət etməmişdim, bir daha oxdum. Həqiqətən, Bakıxanovun musiqiyə sevgisini göstərir, xüsusən tara:

**Əlində titrərkən o nazik tellər**
**Sonsuz həyəcanla titrədi qəlbim.**
**O incə, o şirin, dadlı nəğmələr,**
**Fələyə qaldırdı ruhumu mənim...**

Tar bakıxanovlar nəslinin bəlkə də simvoludur. Bəstəkar Tofiq Bakıxanov deyir ki, bu, şeirin sözlərinə mahnı bəstələyib, bu onun bəstələdiyi ilk mahnılardandır və bu mahnı 15 müğənninin ifasında lentə alınıb. Baxıram və düşünürəm ki, kaş Abbasqulu ağa bunu biləydi...



Bu yerdə film keçid alır növbəti Bakıxanova - **Əhməd XAN Bakıxanov**. Rafael Hüseynov qeyd edir ki, SSRİ zamanında soyadda bəy, xan sözünün saxlanması hər adamın, hər ailənin işi deyildi. Ən azından xəbərdarlıq edilərdi, sıxışdırmalar olardı. Bu adamın adında da xan kəlməsi var. Əvvəldə bilərəkdən böyük hərflərlə yazdım. Təkcə adında, soyadında xanlığını saxlamış insan deyil. Musiqi tariximizi zəif bilirəm və düşünürəm ki, bu gün mütəxəssislər, yəni musiqişünaslar, nəzəriyyəçilər xaric, əksəriyyət mənim kimi az məlumatlıdır. Filmdən öyrənirəm ki, Əhmədxan Bakıxanov 1931-ci ildə xalq çalğı alətləri ansamblını yaradıb. 1931-ci ildə! 30-cu illər SSRİ-nin ən ağır, həbslərlə, işgəncələrlə, sürgünlərlə, vaxtsız və havayı ölümlərlə tarixə düşmüş dövrüdür. Milli musiqi alətləri qadağan olunurdu, nəinki milli alətdə çalmaq, ona şeir həsr etmiş Mikayıl Müşfiqi 29 yaşında güllələmişdilər. Və təəccübümün-marağımın cavabı çox gecikmir. Növbəti fraqmentdən öyrənirəm ki, 1938-ci ildə Əhmədxan Bakıxanov və böyük qardaşı Məmmədxan Bakıxanov həbs edilib. Tarda "Bayatı-Şiraz", "Bayatı-İsfahan"... ifa etdiklərinə görə. Milli musiqini öyrətdiklərinə görə. Bu gün bizə məntiqsiz, gülməli gəlir. Lakin o zaman heç də gülməli deyildi. Bu yolla o qədər ziyalılarımız məhv edilib ki. Yenə filmdən öyrənirəm: Bakıxanov qardaşlarını dahi Üzeyir bəy Hacıbəyov rejimin məngənəsindən xilas edib. Oxuduqlarımdan

xatırlayıram ki, Üzeyir bəyi də vaxtilə Nəriman Nərimanov ölümdən qurtarıb. Heç bir əməl səbəbsiz olmur və yenə heç bir əməl qarşılıqsız qalmır. Ə.Bakıxanov da öz zamanında Hacıbaba Hüseynov kimi ustad sənətkarı mühafizə edərək oxularını lentə yazdırıb, Zeynəb Xanlarovanı qoruyub, müdafiə edib. Sevinirəm ki, xalq çalğı alətləri ansamblı bu gün də fəaliyyət göstərir və Ə.Bakıxanovun adını layiqi ilə daşıyır və yaşadır.

Nəslin növbəti tanınan musiqiçisi ***Tofiq Bakıxanov*** olur. Filmin əvvəlindən bələdçimiz olan Tofiq Bakıxanov. Azərbaycanda orkestrın ilk azərbaycanlı solist-skripkaçısı olduğunu, "Arşın mal alan"dakı ifasını Üzeyir Hacıbəyovun dinlədiyini fəxarətlə qeyd edir. Tofiq Bakıxanov haqqında daha bir maraqlı faktı öyrəndim. Böyük ədibimiz Hüseyn Cavidin oğlu Ərtoğrol Cavidlə ünsiyyətdə olduğunu, musiqi məktəbində oxuyarkən tez-tez evlərində olub onun pianodakı ifalarını dinlədiyini qeyd edir. Filmin mənim üçün ən həyəcanlı məqamlarından biri oldu. Ərtoğrol birbaşa olmasa da, repressiyanın ən məsum, ölümünə ən çox heyfisləndiyim gənc qurbanlarından biridir. Cəmi 24 yaş! Və ondan yaradıcı irs qalıb. Bu gün 24 yaşında gənclər nə əldə edib, ya da nə irs ortaya qoya bilər? Tofiq Bakıxanov Ərtoğrol Cavidin anadan olmasının 100 illiyi münasibətilə kitab nəşr etdirib. Onun bəstələrini, notlarını, haqqında yazılan məqalələri və s. toplayıb. Bu məqamda düşünürəm ki, yəqin Ərtoğrol Cavidlə unsiyyətdə olan yeganə insandır bu gün var olan. Məncə, bu kitabın nəşri ilə N.Nərimanovla başlanan çevrə qapanır.

Filmdə növbəti parçada Tofiq Bakıxanovun "Xəzər balladası" baletindən danışılır. Yenə video-xronika arxivi işə düşür. T.Bakıxanovun bu baleti haqqında elə filmin müəllifi, akademik Rafael Hüseynovun maraqlı bir məqaləsini oxumuşdum. Ordakı faktlar videolentdə sərgiləndi.

Film Xəzər dənizindən görüntü ilə başlayır və yenə dənizin sahilində bitir. Müəllif-aparıcı R.Hüseynov qeyd edir ki, A.Bakıxanov Xəzəri çox sevirmiş və dənizin sularında itmiş qədim şəhəri axtarırdı. Hətta bunun üçün Tiflisdə işlədiyi zamankı dostlarından, tanışlarından kömək istəyərək ekspedisiya da təşkil edir, lakin tapa bilmir. Bu gün Xəzərin sularında Abbasqulu ağa Bakıxanovun adını daşıyan gəmi üzür.

Elmi və bədii əsərləri ilə dünyaca tanınan Abbasqulu ağa Bakıxanov, "Xəzər balladası" baleti ilə Azərbaycan musiqi sənətini Avropa və Asiyada tanıdan Tofiq Bakıxanov və Abbasqulu ağa Bakıxanovun adını daşıyan Xəzər və dünya sularında üzən gəmi. Məncə, "bakıxanovlar"ı bu üç məqam ifadə edə bilir. Filmin əvvəlində müəllif, Bakıxanovlar soyadını daşıyan təxminən 20 nəfərin əhatəsində görünür.

Amma filmdə də qeyd edildiyi kimi, Bakıxanovlar bu insanlarla bitmir, Azərbycanda və ondan kənarda yaşayan bu soyadı daşıyan ailələr var. Bakıxanovlardan bu gün generallar, alimlər, həkimlər, musiqiçilər, mühəndislər və başqa peşə sahibləri məlumdur. Nəsil şəcərəsi böyüdükcə, şaxələndikcə başda bir insanda - Abbasqulu ağa Bakıxanovda cəmlənən bir çox xüsusiyyətlər nəslin ayrı-ayrı nümayəndələrində görünür. Yəqin ki, bu, damarda axan qanın yaddaşıdır. Bölünür, paylanır.

Cəmi 1 saat davam edən filmdə hər məqama, hər kontekstə uyğun məkan görünür: Xəzər dənizinin sahili, İçərişəhər, Bakı xanlarının evi, Bakıxanovun Qubanın Əmsar kəndində yaşadığı evdəki muzeyi qarşısındakı heykəl, Bakının Bakıxanov qəsəbəsindəki heykəli, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Musiqi mədəniyyəti Dövlət Muzeyi, Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası.

M.F.Axundovun adını daşıyan kitabxanada çəkilmiş fraqmentdə A.Bakıxanovun Həcc ziyarətinə getməsi üçün icazə alanda ondan əvəz edəcək şəxs istənildiyi deyildi. O da öz yerinə gənc, amma potensialı olan, layiqli əvəzçi olaraq Mirzə Fətəlini təklif edir. Mirzə Fətəli Axundov Tiflisdə vəzifəsinə başlayır. Yalnız bundan sonra ona səfər icazəsi verilir. Bu yerdə bir məqalədə oxuduğum parça yadıma düşdü: A.Bakıxanov səfər zamanı Təbrizdəki məscidlərin birinə namaz qılmağa daxil olur. Xütbədə onun şeirlərindən, "Nəsihətnamə"sindən parçalar səsləndiyini, hər dəfə də "rəhmətlik Abbasqulu ağa deyir ki", "Allah rəhmət etsin Abbasqulu ağaya" kimi ifadələr eşidir. A.Bakıxanov məscidin sütununa söykənib ağlamağa başlayır. Yaxınlıqdakı camaat ondan niyə

ağladığını soruşanda belə cavab verir ki, "çox adamın arzuladığını, amma görə bilmədiyini Allah mənə qismət edib. Hamı istəyər bilsin ki, öləndən sonra camaat onun haqqında nə düşünəcək, nə deyəcək. Şeirlərini oxuyub rəhmət oxuduğunuz Abbasqulu ağa mənəm". Görəsən, Abbasqulu ağa Bakıxanov bu gün həyatda olsaydı, cəmi bircə saat bu dünyaya qayıdıb, ən azından bu filmi seyr edə bilsəydi nə düşünərdi, nə deyərdi?

Məncə, onun maarifçilik ənənələrinin, xalqı, milləti, xüsusən onun gənclərini öyrətməyin yeni üslubda, zamanın tələbinə uyğun - filmlə davam etdirildiyini görüb sevinərdi. Həm də onun yaradıcılarına təşəkkür edərdi. Şəxsən mən öz adımdan təşəkkür edirəm. Bir saata nə qədər kitab oxumaq olar ki? Amma bircə saatlıq filmdə bütöv bir nəslin tarixçəsi, bir nəsilin tarixçəsində xalqın keçdiyi təxminən 300 illik yol var. Marağı, istəyi olan, xüsusən gənc nəsil bu filmdən götürdüyü bir cümlə, bir fikirlə yeni-yeni məlumatlar araşdırıb öyrənə bilər.

Film sənədli filmdir. Bakıxanovlar ailələrinin şəxsi arxiv materiallarından, Dövlət Arxiv İdarəsinin, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin, Azərbaycan Televiziyasının arxiv materiallarından istifadə edilib, təkcə mətndə, ssenaridə yox, həm də imkan düşdükcə faktları göstərməklə. Lakin film bir qədər müsahibə, bir qədər bədii əlavələrlə daha rəngarəng və dolğun alınıb. Tamaşaçını yormur və sona qədər maraq damarını saxlaya bilir. Başqa sözlə, elmiliklə bədiilik vəhdət təşkil edir. Müasir sənədli film məhz belə olmalıdır. Quru xronika xarakterli filmlər tamaşaçını (mənim kimi) bir saat ekran qarşısında və daha sonra monitor arxasında oturda bilməz.

Hal-hazırda həm məktəblərdə, həm də ali təhsil müəssisələrində dərs deyən müəllimlər təkcə dərsliklərlə kifayətlənmir, əlavə materiallardan, xüsusən kitabsız mənbələrdən faydalanmağa çalışır. Bu film və buna bənzər filmlər daha çox olarsa, onların köməyinə gələ bilər. Hər klassikimiz haqqında bu cür filmlər çəkilərsə, həm onları xalq daha yaxşı tanıyar, həm də böyük həmvətənlərimizi məktəblərdə tədris edərkən müəllimlərimizin işi bir qədər yüngülləşər.

Düşünürəm ki, akademik Rafael Hüseynovun bu filmi də öncəkilər kimi geniş tamaşaçı auditoriyasının diqqətini çəkəcək və filmin təkrar-təkrar nümayişinə səbəb olacaq.

Azərbaycanın ictimai-siyasi, mədəni, elmi həyatında xüsusi çəkisi olan digər məşhur nəsillər haqqında da sənədli, bədii-sənədli filmlərin çəkilməsi maraqlı olardı. Hətta "Bakıxanovlar" səpkili filmləri alt-titrla da olsa xarici dillərə tərcümə etmək və nümayiş etdirmək Azərbaycanın tarixi varlığını, milli-mənəvi dəyərlərini dünyaya göstərmək üçün bir vasitə ola bilər.

Kəmalə NURİYEVA
Fəlsəfə üzrə fəlsəfə doktoru

## Əhməd Bakıxanov (film, 2003






*https://www.youtube.com/watch?v=61BnKw5imbw*